# AZƏRBAYCAN-TÜRKİYƏ ƏLAQƏLƏRİ HEYDƏR ƏLİYEV İŞIĞINDA



*Sevindik NƏSİBOĞLU*

*(Əvvəli ötən sayımızda)*

Süleyman Dəmirəl bu mükafatın öz əsl sahibini tapdığını bilirdi. Süleyman Dəmirəl həm dövlət başçısı, həm də türk oğlu türk kimi Ulu Öndərimizi bir qardaş təəssübkeşliyi və səmimiyyəti ilə sevirdi. O, tədbirdə bildirdi ki, bu mükafat elə ən çox Heydər Əliyevin haqqıdır. Ulu Öndərimiz tədbirdə mükafata layiq görülməsi ilə bağlı çıxışında belə gözəl mükafata layiq görülməkdən şərəf duyduğunu, sevindiyini və qürurlandığını bildirmiş, səbəbkarların adlarını xüsusi qeyd edərək onlara dərin təşəkkürünü bildirmişdi.

Ulu Öndərimiz Türkiyəyə olan bu dəfəki səfərini yenə Anıtqəbiri ziyarət edərək oradakı xatirə dəftərinə ürək sözlərini yazmaqla sonlandırmışdı.

Türkiyə universitetlərinin bu günə qədər Ulu Öndərə verdiyi dəyər, təbii ki, həmişə bitməz və tükənməz olmuşdur. Bu, Ulu Öndərin sağlığında da belə idi, indi də belədir. Elə noyabr ayının sonlarında yolunu yenidən qardaş ölkədən salan Ulu Öndərimizə İsparta Universitetinin rəhbərliyi sözü gedən təhsil ocağının fəxri doktoru adını vermişdi. Ulu Öndər fəxri adın verildiyi tədbirdə etdiyi çıxışında Azərbaycan xalqının böyük dostu bildiyi Süleyman Dəmirəli və Şimali Kipr Türk Respublikasının Prezidenti Rauf Denktaşı ürəkdən salamlayaraq çıxışında bir daha bildirirdi ki, Azərbaycan-Türkiyə dostluğu, qardaşlığı daimidir, əbədidir. Türkiyə və Azərbaycan universitetlərinin iş birliyindən söhbət açan Ulu Öndər bu iş birliyinin gələcək illərdə daha da inkişaf edib güclənəcəyindən şübhə etmədiyini də söyləyirdi.

Heydər Əliyev Türkiyədə baş verən önəmli hadisələrə son dərəcə həssaslıqla yanaşır və bununla bağlı ilk məlumatı olanlardan biri olurdu. Elə bunun sübutu yenə də 1999-cu ildə baş vermişdir. Belə ki, 12 dekabr 1999-cu ildə Türkiyənin Avropa Birliyi üzvlüyünə namizəd olması münasibətilə Ulu Öndərimiz Heydər Əliyev Süleyman Dəmirələ və baş nazir Bülənd Ecevitə ən səmimi təbriklərini məktubları vasitəsi ilə çatdırmışdı.

Ulu Öndərin yaşadığı və Azərbaycana rəhbərlik etdiyi son illərdə Türkiyəyə etdiyi önəmli səfərlərdən biri də 2000-ci ilin yanvar ayında baş vermişdir. Belə ki, Azərbaycanımızın qəhrəman oğlu həmin səfərində adəti üzrə səmimi dostu, qardaşı Süleyman Dəmirəllə təkbətək söhbət etmişdir. Ulu Öndərin Türkiyə Respublikasının Baş naziri Bülənd Ecevitlə olan görüşü və söhbəti də səfərdə ən diqqət çəkən məqamlardan biri olmuşdur. Qeyd edim ki, səfər Ramazan bayramında baş tutduğundan Bülənd Ecevit ilk olaraq bu bayram günündə Ulu Öndərimizlə görüşündən böyük məmnunluq duyduğunu bildirmişdi. Ulu Öndər Türkiyə xalqını və baş nazir Bülənd Eceviti bu bayram münasibətilə təbrik etmişdi. Ulu Öndər Ecevitlə görüşündə Azərbaycanda Ramazan bayramının tarixindən söhbət açmışdı. Söhbətdə Ulu Öndər Ecevitə demişdi: "Hesab etdim ki, bayram günü Türkiyədə olmaq mənim üçün fövqəladə gözəl bir işdir. Çünki biz də Ramazan bayramını qeyd edirik, amma biz bunu sovet dövləti dağılandan sonra edirik. O vaxta qədər bizdə din yasaq idi. Ramazan bayramını keçirmək olmazdı. Amma mənim anam, atam Ramazan ayında daim bütün ibadətləri keçirərdilər... Ramazan və Qurban bayramları dini bayramlar olduğuna görə 70 il Azərbaycanda yasaq edilmişdi. Mənim anam Ramazan bayramında yeməklər, şirin çörəklər bişirərdi..."

12 yanvar 2000-ci ildə "Azərbaycan" qəzetində xəbər şəklində dərc olunan bu görüşün sonunda Ulu Öndər bir daha Ramazan bayramı və 2000-ci ilin gəlişi münasibətilə təbriklərini çatdırmış, Türkiyənin Ramazan bayramının məkanı olduğunu bildirmiş və Ecevit hökuməti sayəsində Türkiyənin daha da yüksəklərə qalxacağını söyləmişdi.

Heydər Əliyevin Türkiyəyə növbəti səfəri zamanı ən diqqət çəkən məqamlardan biri də növbəti danışacağım məqamdır. Ümumiyyətlə, əvvəl də qeyd etdiyim kimi Ulu Öndərimiz hər zaman öz uzaqgörənliyi ilə diqqət çəkmişdir. O, böyük azərbaycançı və böyük türkçü olduğunu hər zaman sübut etmiş, onunla eyni amalda, eyni niyyətdə olan qardaş türk siyasətçiləri və hökumət başçıları ilə ən səmimi görüşlərini keçirmişdir. Bu görüşlər gələcəkdə Türkiyəni dəyişdirəcək və daha da inkişaf etdirəcək həmin başçıların qəlbində, fikrində böyük bir iz qoymuşdur. Həmin izi isə başlıca olaraq Heydər Əliyev fenomeni qoymuşdur. 10 yanvar 2000-ci ildə Ulu Öndərimiz Çankaya köşkündə o vaxt Türkiyə Respublikasının Baş nazirinin müavini, Milliyyətçi Hərəkat Partiyasının sədri, böyük türk milliyyətçisi və siyasətçisi olan cənab Dövlət Baxçalı ilə görüşmüşdür. Dövlət Baxçalı Ulu Öndərimizi həddən ziyadə qardaş sevgisi və səmimiyyəti ilə qarşılamışdır. Ulu Öndərimiz giriş sözünə başlayanda ilk olaraq Ramazan bayramı və 2000-ci ilin gəlişi münasibətilə təbriklərini, xoş arzularını bildirmiş, nitqində bu sözləri qeyd etmişdir; "Azərbaycan Türkiyəni həmişə sevir və sevəcəkdir. Mən bu xoş arzularımı sizə bildirmək istəyirdim".

Dövlət Baxçalı Heydər Əliyevlə görüşündən böyük məmnunluq duyduğunu bildirərək eyni qaydada Ulu Öndərimizə təbriklərini çatdırmış, xalqımıza səadət, firavanlıq arzulamışdır. Dövlət Baxçalının Ulu Öndərlə görüşündə söylədiyi sözlər xüsusilə dəyərləndirilməlidir. Belə ki, o, çıxışında demişdir; "Zati-aliləri, mən onu da deməliyəm ki, bizim qəlbimizdə Azərbaycanın xüsusi yeri vardır. Azərbaycan müstəqil bir dövlət olduqdan sonra respublikanızda gedən demokratik prosesləri və sizin rəhbərliyinizlə hüquqi demokratik dövlət quruculuğu sahəsində görülən işləri biz yüksək qiymətləndiririk. Türkiyə hər zaman Azərbaycanla bərabər olmağı arzulamışdır və bundan sonra da həmişə olacaqdır".



Baxçalı-Əliyev görüşündə hər iki siyasətçi Türkiyə-Azərbaycan qardaşlıq əlaqələrinin inkişafından söhbət açmış, Bakı-Ceyhan əsas ixrac neft boru kəməri ilə bağlı sazişi yüksək qiymətləndirmiş və Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunacağına ümid bəslədiklərini bildirmişlər. Sonda Ulu Öndərimiz Dövlət Baxçalını Azərbaycana dəvət etmiş, Dövlət Baxçalı isə bu səmimi dəvəti qəbul edərək dəvətə görə Ulu Öndərimizə minnətdarlığını bildirmişdir.

Bu gözəl və son dərəcə səmimi görüşdən sonra Ulu Öndərimiz 8 aprel 2000-ci ildə Bakıda Türkdilli Ölkələrin Dövlət Başçılarının VI Zirvə görüşünə ev sahibliyi etmiş və Turana gedən yolda ümid körpüsü qurmağa çalışan türk dövlət başçılarını qəbul etmişdir. Çox müsbət və uğurlu keçən Zirvə görüşündə iştirak edənlərdən biri və birincisi Türkiyə Respublikasının Prezidenti Süleyman Dəmirəl idi. Görüş gedişatında Ulu Öndərimizlə Süleyman Dəmirəl bir daha görüşdü. Səhərisi gün "Kitabi-Dədə Qorqud"un yaranmasının 1300 illik yubileyində də Süleyman Dəmirəl iştirak etdi. Tədbir gedişatında Ulu Öndərimiz Süleyman Dəmirələ əziz dost, qardaş münasibəti və qayğısı ilə yanaşırdı. Belə ki, Süleyman Dəmirəl tərəfindən "Dövlət nişanı" ordeni və "Atatürk Sülh Mükafatı"na layiq görülən Ulu Öndərimiz Süleyman Dəmirələ "Azərbaycan Respublikasının fəxri vətəndaşı" adını verdi. Bu fəxri adı təqdim etməklə bərabər çıxışında Ulu Öndərimiz bir daha Türkiyə-Azərbaycan əlaqələrinin Süleyman Dəmirəl dönəmində güclü bir şəkildə inkişaf etdiyini bildirir, Süleyman Dəmirəlin 50 illik siyasi fəaliyyətini yüksək qiymətləndirirdi. Çıxışında indiyədək bu fəxri adın Süleyman Dəmirəldən başqa heç kəsə verilmədiyini də bəyan edən Heydər Əliyev bu adın Süleyman Dəmirələ - Azərbaycan xalqının böyük dostuna verildiyini xüsusi vurğulamışdır.

Həmin gün çağdaş Türkiyə-Azərbaycan qardaşlıq tarixində silinməz iz qoyan bir hadisə də yaşandı. Ulu Öndər Heydər Əliyev Süleyman Dəmirəllə birlikdə uzun müddət bundan qabaq tikilmiş, and yerimiz olan abidənin - Bakı Türk Şəhidliyinin açılış mərasimində iştirak etdi. Abidə ziyarətçilərin görüşünə təqdim olunarkən Ulu Öndərimiz bir daha çıxış etdi. Çıxışında "Kitabi-Dədə Qorqud"dan misal çəkən Heydər Əliyev bildirdi ki, Dədə Qorqud türk oğullarını birliyə, birləşməyə səsləyirdi. Dədə Qorqud deyirdi ki, nə qədər bir olsanız, əl-ələ versəniz, o qədər də uğurlu, o qədər də qalib olacaqsınız. Ulu Öndər Bakı Türk Şəhidliyinin tarixindən danışaraq Osmanlı imperiyasının yardımı ilə Bakının düşmən işğalından azad edilməsindən də söhbət açdı. Bildirdi ki, indiyədək Nuru Paşanı, Xəlil Paşanı Azərbaycanda tanımayan yoxdur. Onlar qəhrəman türk oğullarıdır. Sovet hakimiyyəti illərində burada yatan qəhrəman şəhidlərin adı, izi pozulsa belə onların adları, izləri Azərbaycanın qəlbindən silinməmişdir.

Ulu Öndər Sovet hakimiyyəti illərində bir zamanlar məzarlıq olan bu yerlərin zamanla necə park halına salındığı, insanların burada necə əyləndiyi və buranın ən əzəmətli yerində Rusiyadan gəlmiş işğalçı Kirovun heykəlinin ucaldılmasından da heyfsilənərək danışmışdı. Qarabağ müharibəsindən və 20 Yanvar faciəsindən də söhbət açan Ulu Öndər sonda bildirmişdi ki, burada indi həm türk əsgərləri, həm də Azərbaycan əsgərləri bir yerdə uyuyurlar. Biz bu gün bir daha türklərin birliyini bütün dünyaya nümayiş etdirdik.

Bu təntənəli açılışdan təqribən 1 ay sonra - 16 may 2000-ci ildə Süleyman Dəmirəl 7 il icra etdiyi Türkiyə Respublikası Prezidenti vəzifəsindən ayrılmalı və bu vəzifəni Əhməd Necdət Sezərə verməli oldu. Ulu Öndərimiz 13 may 2000-ci ildə Süleyman Dəmirələ bununla bağlı məktub yazmışdı. Məktubda Süleyman Dəmirəlin dövründə Türkiyənin necə çiçəkləndiyi, Türkiyə ilə Azərbaycanın əməkdaşlığı sahəsində görülən işlər və s. məsələlərdən söhbət açan Ulu Öndər məktubunu bu sözlərlə bitirmişdi: "Xalqımız Sizin xidmətlərinizi heç vaxt unutmayacaqdır, Azərbaycana hər gəlişiniz zamanı Sizi öz oğlu kimi təkrar-təkrar bağrına basmağa şad olacaqdır. Mən isə şəxsən Sizinlə dostluğumuzdan qürur duyuram və bu dostluğa daim sadiq qalacağam".

Ulu Öndərimiz Heydər Əliyev Süleyman Dəmirələ təşəkkür dolu məktub yazdığı kimi Əhməd Necdət Sezərə də ünvanladığı məktubda yeni prezidenti təbrik etmiş və ona uğurlar arzulamışdı.

Heydər Əliyev vəfat etdiyi günə qədər bir neçə dəfə Əhməd Necdət Sezərin dəvəti ilə Türkiyədə olmuş, bir neçə dəfə də Sezəri və heyətini Bakıda qəbul etmiş, onun şərəfinə rəsmi ziyafət vermişdir.

*(Davamı 3-cü səhifədə)*

*(Əvvəli 2-ci səhifədə)*

# AZƏRBAYCAN-TÜRKİYƏ ƏLAQƏLƏRİ HEYDƏR ƏLİYEV İŞIĞINDA

Ulu Öndərin ömrünün son illərində Türkiyəyə və onun PKK terrorçularına qarşı mübarizəsinə verdiyi dəstəyin bir sübutu da 15 avqust 2000-ci ildə olmuşdur. Həmin tarixdə Ulu Öndər Türkiyə qazilərini çox səmimi şəkildə qəbul etmiş və onlarla görüşmüş, söhbət etmişdir. Bu söhbətdə Ulu Öndərin nitqi "Azərbaycan" qəzetinin 16 avqust 2000-ci il tarixli nömrəsində dərc edilmişdir. Ulu Öndərin dilindən səslənən bu cümlələrin hər biri necə də böyük kəlamdır; "Siz qazilər və qardaş türk xalqının öz dövlətinin bütövlüyünü qorumaq uğrunda, terrorizmə qarşı mübarizədə, PKK terrorizminə qarşı mübarizədə şəhid olmuş bizim qardaşlarımız, övladlarımız - hamınız birlikdə həm Türkiyə Cümhuriyyətinin, türk xalqının fəxrisiniz, iftixarısınız, eyni zamanda Azərbaycan xalqının iftixarısınız, fəxrisiniz". Ulu Öndər çıxışında bir daha hamımızın bir kökdən olduğumuzu vurğulayaraq demişdi; "İndi burada oturmusunuz, baxırsınız. Kim deyə bilər ki, bu, Anadolu türküdür, yaxud Azərbaycan türküdür? Fərqi yoxdur. Yəni biz bir kökdənik... Bizi bir-birimizdən seçmək mümkün deyildir".

Ulu Öndər bir daha qazilərlə Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizə tarixindən, torpaqlarımızın zaman-zaman ermənilərə verilməsindən və ermənilər tərəfindən işğal edilməsindən söhbət açdı. Çıxışının sonunda bildirdi ki, Azərbaycan qardaş ölkə Türkiyə ilə dostluğu, qardaşlığı ən əziz nemət hesab edir.

Bundan bir qədər əvvəl Türkiyənin o dövrdəki Baş nazirinin müavini Dövlət Baxçalının Ulu Öndərimizi necə səmimi şəkildə qəbul etdiyindən bəhs etmişdim. Ulu Öndərimiz də Dövlət Baxçalını Azərbaycana dəvət etmiş və Dövlət Baxçalı da bu dəvəti səmimi şəkildə qəbul etmişdi. Dövlət Baxçalının Azərbaycana Baş nazirin müavini kimi səfəri 2002-ci ildə Ulu Öndərimizin anadan olmasının 79-cu ildönümü ərəfəsinə təsadüf edirdi. 2002-ci ilin 7 may tarixində Prezident sarayında Ulu Öndərimiz Heydər Əliyev Dövlət Baxçalını və onun nümayəndə heyətini qəbul etmiş, onlarla görüş keçirmişdir. Ulu Öndərimiz ilk olaraq Dövlət Baxçalını və onun nümayəndə heyətini salamlamış, Türkiyə kimi Azərbaycanın da onların vətəni olduğunu bildirərək onların öz vətənlərinə gəldiyini söyləmişdir. Öndərimiz dəvəti qəbul edib Bakıya səfər etdiyi üçün Dövlət Baxçalıya təşəkkürünü bildirmiş, Dövlət Baxçalının Bakı səfərini Türkiyə-Azərbaycan əlaqələrinin, dostluğunun və qardaşlığının inkişaf etdirilməsində əlamətdar bir hadisə kimi qiymətləndirmiş, Dağlıq Qarabağ münaqişəsindən də danışaraq bu münaqişənin həll edilməsinin önəmini bir daha vurğulamış, sonra isə sözü Dövlət Baxçalıya vermişdir. Dövlət Baxçalı Azərbaycana ilk dəfə gəldiyini söyləyərək dəvət üçün Ulu Öndərə təşəkkürünü bildirmiş, "Bir millət, iki dövlət" sözünün əhəmiyyətindən söhbət açaraq Türkiyə-Azərbaycan əlaqələrinin yeni dövrdə daha çox inkişaf etdiyini və edəcəyini söyləmişdir. Dağlıq Qarabağ münaqişəsində ermənilərin işğal etdikləri Azərbaycan torpaqlarından çıxmalı olduqlarını deyən Dövlət Baxçalı bu münaqişənin həll olunmasında Türkiyənin bütün gücünü sərf edəcəyini və Azərbaycanın yanında olmağa davam edəcəyini də bildirmişdir.

Ulu Öndərimiz görüşün sonunda Dövlət Baxçalıya ziyarətinə görə bir daha təşəkkürünü bildirmiş, onu bir daha Azərbaycana səfərə dəvət etmişdir. Yenə də 28 iyun 2002-ci ildə Ulu Öndərin Qars vilayətinə səfəri olmuşdur. Etnik Türkiyə azərbaycanlılarının yaşadığı Qars vilayətinin ali təhsil ocağı olan Qafqaz Universiteti rəhbərliyi bu səfər gedişatında Ulu Öndərə universitetin fəxri doktoru diplomunu təqdim etmişdir.

Ulu Öndərimiz Türkiyəyə hər sahədə dəstək olduğu kimi idman sahəsində də dəstək olmuş və Türkiyənin idman yeniliklərini hər zaman izləmişdir. Bunu 29 iyun 2002-ci il tarixli məktubdan da görmək olar. Çünki həmin ərəfədə 2002 FİFA Dünya Kuboku turniri keçirilirdi və Türkiyə də həmin turnirdə iştirak edirdi. Türkiyənin milli futbol komandası dünya çempionatında Braziliya millisinə uduzsa da, Cənubi Koreyanı məğlub edərək dünya üçüncüsü ola bilmişdi. Bu möhtəşəm qələbəyə Türkiyədə olduğu kimi Azərbaycanda da hamı sevinirdi. Təbii ki, ən çox sevinən Ulu Öndərimiz Heydər Əliyev idi. O, 29 iyun 2002-ci il tarixli məktubunda Türkiyənin Braziliyaya məğlub olmasından Cənubi Koreyanı isə məğlub etməsinə qədər bütün hadisələri təfsilatı ilə, sanki özü o oyunu izləyirmiş kimi yazırdı. Hətta ilk qolu və ya növbəti qolları hansı komandanın vurmasını da dəqiq olaraq bildirmişdir. Heydər Əliyev məktubunda yazırdı ki, Türkiyə futbol komandası oyunlarda qələbə qazananda, xüsusilə Seneqal komandasını məğlub edəndə şəhərdə azərbaycanlılar əllərində bayraqlarla küçələrə çıxır, bunu bayram edir və bir-birlərini qucaqlayıb təbrik edirdilər. Ulu Öndər sonda Türkiyəni bu qələbə münasibətilə təbrik edir, bunun təkcə Türkiyənin yox, həm də Azərbaycanın və türk dünyasının qələbəsi, bayramı olduğunu bildirmiş, hədsiz sevincini vurğulayaraq məktubunu sona çatdırmışdı.

Ulu Öndərimizin Türkiyə dövlət rəhbərləri ilə son görüşlərindən biri də 7 yanvar 2003-cü ildə, yəni vəfatından 11 ay əvvəl olmuşdur. Həmin gün uzaqgörən Öndərimiz strategiyası və siyasəti ilə gələcəkdə bütün Türk və İslam dünyasının fəxrinə, qüruruna çevriləcək lideri - Rəcəb Tayyib Ərdoğanı qəbul etmişdi. Ulu Öndər həmişə Rəcəb Tayyib Ərdoğanın qəlbində, fikrində, sonrakı siyasət illərində və fəaliyyətində böyük iz qoymuşdur. Uzaqgörən Ulu Öndər də hələ yenicə Türkiyə siyasətini idarə etməyə başlayan bu gənc liderin gələcəyinin irəlidə, parlaq olduğunu bilir və ona dəstək verirdi. Təəssüf ki, bu iki lider gələcəkdə bir neçə dəfə məktublaşsalar da, sadəcə bir dəfə rəsmi şəkildə görüşə bilmişdilər. Həmin görüş də yuxarıda qeyd etdiyim kimi 7 yanvar 2003-cü ildə gerçəkləşmişdir. Həmin gün Türk cümhuriyyətlərinə 5 günlük səfərə başlayan Rəcəb Tayyib Ərdoğan ilk olaraq yolunu Bakıdan salmışdı. O vaxt Rəcəb Tayyib Ərdoğan seçkilərdə yenicə qələbə qazansa da, hələ baş nazir olmamışdı və Bakıya sadəcə iqtidara yenicə gələn Ədalət və İnkişaf Partiyasının lideri kimi səfər etmişdi. Ulu Öndər Rəcəb Tayyib Ərdoğanın və nümayəndə heyətinin Bakıya ilk gəlişi münasibətilə "Ulduz" sarayında ziyafət vermişdir. Ziyafətdə Ulu Öndər çıxış etmiş və çıxışında ilk olaraq Rəcəb Tayyib Ərdoğanla nümayəndə heyətini salamlamışdır. Ulu Öndərimizin Rəcəb Tayyib Ərdoğanla bağlı ilk təsəvvürləri bunlardan ibarət olmuşdur; "Cənab Rəcəb Tayyib Ərdoğan, mən sizinlə təkbətək danışıqdan, apardığımız fikir mübadiləsindən çox məmnunam. Bizim fikirlərimiz üst-üstə düşür və indiyə qədər olduğu kimi, bu gün də siz də, mən də Türkiyə-Azərbaycan əlaqələrini ən yüksəkdə tuturuq. Mən sizinlə apardığım danışıqlar nəticəsində belə anladım".

Ulu Öndər Heydər Əliyev Rəcəb Tayyib Ərdoğanla vaxtilə İstanbulda görüşdüyünü və bir yerdə yemək yediyini də xatırladaraq bu dəfəki görüşün fərqli olduğunu söyləmişdir. O, Ədalət və İnkişaf Partiyasının son seçkilərdə əldə etdiyi qalibiyyətinin önəmindən danışaraq bildirmişdir ki, Rəcəb Tayyib Ərdoğanın liderliyində bu partiya Türkiyədə unudulmayacaq bir qələbə qazanmış və uzun illər sonra Türkiyədə koalisiyasız hökumət qurmağı bacarmışdır. Heydər Əliyev koalisiyasız qurulan hökumətin necə əhəmiyyət daşıdığını bildirərək söyləmişdir ki, başçı tərəfindən təkbaşına, kimləsə birləşmədən qurulan hökumət həmişə ölkəni irəliyə aparır. Bu işdə Ədalət və İnkişaf Partiyasını nümunə çəkən Ulu Öndərimiz Rəcəb Tayyib Ərdoğan hökumətinin Türkiyədə ona olan etimadı doğruldacağından və Türkiyəni inkişaf etdirib daha da irəliyə aparacağından şübhə etmədiyini söyləmişdir. Heydər Əliyev səhərisi gün Şəhidlər Xiyabanında təşkil olunacaq səfərdən öncə Rəcəb Tayyib Ərdoğanı bir daha ermənilərin azərbaycanlılara etdiyi soyqırımla bağlı məlumatlandırmış, Qafqaz İslam Ordusunun Bakını xilas etməsindən danışmış və 2000-ci ildə Süleyman Dəmirəllə birgə "Bakı Türk Şəhidliyi" abidəsinin açılmasından da söhbət açmışdır. Ulu Öndərin bu ziyafətdəki çıxışı müfəssəl olaraq "Azərbaycan" qəzetinin 8 yanvar 2003-cü il tarixli sayında dərc edilmişdir. Qəzetin həmin sayında Ulu Öndərin bir görüşünə də xüsusi yer verilmişdir. Heydər Əliyev Rəcəb Tayyib Ərdoğanın şərəfinə ziyafət verdiyi gün onunla və onun nümayəndə heyəti ilə rəsmi görüş keçirmişdir. Görüşü Ulu Öndər giriş sözü ilə açaraq Rəcəb Tayyib Ərdoğana və onun nümayəndə heyətinə "Xoş gəlmisiniz!" söyləmiş və onların Azərbaycana olan səfərinin qiymətli olduğunu bildirmişdir.

Ulu Öndər 2002-ci ilin noyabrında keçirilən seçkilərdə Rəcəb Tayyib Ərdoğanı və Ədalət və İnkişaf Partiyasını qazandığı qələbəyə görə ən səmimi duyğularla təbrik etmiş, xoş diləklərini söyləmişdir. Ulu Öndərimiz yeni hökumətin Türkiyə və Azərbaycan üçün uğurlu olacağına yüksək inamının olduğunu xüsusi vurğulamışdır. Heydər Əliyev Rəcəb Tayyib Ərdoğanla görüşündə onun millət vəkili və baş nazir seçiləcəyinə inancının tam olduğunu bildirmiş, bu prosesləri yaxından izlədiyini vurğulamışdır. Ulu Öndər çıxışının sonuna yaxın Rəcəb Tayyib Ərdoğanın hakimiyyətə keçdiyi qısa müddət ərzində Avropa Birliyinə üzvlük barədə, Kipr məsələsi barədə və daha bir çox dünyəvi məsələlərlə bağlı dəyişməz və haqlı mövqeyə sahib olduğunu bildirmişdir. O, demişdir ki, Rəcəb Tayyib Ərdoğan baş nazir mandatına sahib olandan sonra bu işləri daha çox və asanlıqla görəcəkdir.



Rəcəb Tayyib Ərdoğanın isə Türkiyə-Azərbaycan qardaşlığı ilə bağlı dediyi sözlər son dərəcə ürəkaçandır; "Biz, nümayəndə heyətinin bütün üzvləri qardaş Azərbaycanı ziyarət etməkdən və zati-aliləri ilə bir arada olmaqdan böyük məmnunluq və şərəf duyuruq. Təbii, biz bu gün yenə öz evimizdəyik... Türkiyə ilə Azərbaycan arasında, əslində, anlatmağa ehtiyac olmayan çox ciddi qardaşlıq kökləri var. Biz hər şeydən əvvəl qardaşıq".

Çıxışı zamanı cənab Rəcəb Tayyib Ərdoğan 1993-cü ildə Azərbaycanda olduğunu bildirmiş və o vaxtdan bu vaxta qədər ölkəmizin son dərəcə dəyişdiyinin fərqində olduğunu söyləmişdir. Bunun ən böyük səbəbini isə Heydər Əliyevdə görərək demişdir ki, sizin bu idarəçiliyiniz dünyaya bir nümunədir.

Rəcəb Tayyib Ərdoğan Türkiyə-Azərbaycan əlaqələrinin ticarət sahəsində də daha çox inkişaf edəcəyindən əminlik duyduğunu ifadə etmişdir. 2002-ci ilin noyabrında qazanılan zəfərdən və hakimiyyətə başçılıq edəndən sonrakı iş qrafikindən söhbət açan Türkiyə lideri Rusiyaya və Avropa Birliyinin 14 ölkəsinə səfər etdikdən sonra türk cümhuriyyətlərinə səfər etməyi qərara aldıqlarını və bu səfərə ilk olaraq Azərbaycandan başladıqlarını bildirmişdir. Rəcəb Tayyib Ərdoğanın Ulu Öndərə söylədiyi bu sözlər də son dərəcə dəyərlidir: "Bizim aramızda olan qardaşlıq telləri yalnız keçmişimizdən deyil, həm də gələcəyimizdən ilham alır. Çünki qardaşların arasındakı bağlar zaman baxımından sərhədsizdir. Arzumuz, diləyimiz bu həmrəyliyimizi, bu birliyimizi, bu bərabərliyimizi gələcəyə doğru daha şövqlə, sevgi və məhəbbətlə aparmaqdır. Çünki bizə bizdən fayda var. Bunu bacarmağımız lazımdır".

***(Davamı 4-cü səhifədə)***

# AZƏRBAYCAN-TÜRKİYƏ ƏLAQƏLƏRİ HEYDƏR ƏLİYEV İŞIĞINDA



*(Əvvəli 3-cü səhifədə)*

Rəcəb Tayyib Ərdoğan çıxışında Bakı-Tiflis-Ceyhan boru kəməri layihəsinin 2005-ci ildə yox, daha tez hazır olmasını istədiyini, bunun üçün çalışdıqlarını və çalışacaqlarını da vurğulamışdır. Ulu Öndər də Rəcəb Tayyib Ərdoğanın bu təklifini bəyənmiş və razılaşmışdır.

Rəcəb Tayyib Ərdoğan bu layihənin həyata keçməsində zamanla yarışdıqlarını da əlavə etmişdir. O, təkcə bu sahədə yox, energetika və mədəniyyət sahəsində də əlaqələrin güclənməsinin vacibliyini vurğulamışdır. Sonda o, səmimi qəbula görə Heydər Əliyevə dərin minnətdarlığını bildirmişdir. Beləcə də həmin tarixi görüş sona çatmışdır.

Sonra Heydər Əliyevin və Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə mətbuat konfransı baş tutmuşdur. Ulu Öndərin mətbuat konfransında olan çıxışı "Azərbaycan" qəzetinin 8 yanvar 2003-cü il tarixli sayında dərc olunmuşdur. Çıxışda Ulu Öndər Rəcəb Tayyib Ərdoğanla görüşdə reqlamenti pozduqlarını və birlikdə protokol qaydalarından kənar müddətdə danışdıqlarını bildirmişdir. Hətta bir neçə dəfə protokol şöbəsindən onlara vaxtın keçdiyi deyilmişdir. Bu qədər uzun söhbəti Ulu Öndər danışığın səmərəliliyi, məna və mövzu baxımından böyük önəm təşkil etməsi ilə əlaqələndirmişdir. Ulu Öndər Rəcəb Tayyib Ərdoğanın baş nazir olacağına böyük ümid bəsləyərək bildirmişdir ki, baş nazir olduqdan sonra ona yenə dəvətim var və o yenə Azərbaycana səfər edəcəkdir. Onda danışmağa və müzakirə aparmağa daha çox vaxtımız olacaq.

Ancaq təəssüflər olsun ki, həyatın yarısından çoxu gözlənilməz hadisələrlə doludur. İnsanın həyatında bəzən ən gözlənilməz, ən arzuolunmaz hadisələr birdən baş verir və insan bu hadisələrlə necə barışacağını bilmir. Ulu Öndər Heydər Əliyev Rəcəb Tayyib Ərdoğanın baş nazir olacağından və bu hadisədən sonra yenidən onu Bakıda qarşılayacağından əmin idi. Lakin təəssüf ki, 2003-cü ilin dekabr ayının 12-də Ulu Öndərimiz vəfat etdi. Həmin vaxt Rəcəb Tayyib Ərdoğan baş nazir olmuşdu, lakin onu Heydər Əliyev bir də heç zaman qarşılaya bilməyəcəkdi...



Ulu Öndərin nəşi onun Ana Vətənində dəfn edildiyi zaman İlham Əliyevin yanında bir qardaş kimi dayanan, ona təsəlli verən və onunla birgə kədərlənən bir lider var idisə, o da Rəcəb Tayyib Ərdoğan idi. O, Ulu Öndərin xatirəsini ən əziz bir insan, bir dahi kimi ömürlük qəlbində saxlamışdı və saxlayacaqdı.

Heydər Əliyevin vaxtsız gedişi qəlbimizə zərbə vursa da, Türkiyə-Azərbaycan əlaqələrinə zərbə vurmadı, onu dayandırmadı. Ulu Öndərdən sonra hakimiyyətə gələn qəhrəman atanın layiqli, etibarlı davamçısı cənab Prezidentimiz İlham Əliyev Rəcəb Tayyib Ərdoğanla dəfələrlə görüşdü, onu Bakıda qarşıladı və zaman-zaman Rəcəb Tayyib Ərdoğan tərəfindən qardaş ölkədə qarşılandı. Onlar Türkiyə-Azərbaycan əlaqələrinin inkişafı, Ulu Öndərin mirasını qoruyub saxlamaq və nəsillərdən-nəsillərə ötürmək üçün çox çalışdılar. Zaman-zaman daxili və xarici düşmənlərimiz maneə yaratmağa çalışsalar da, onlar əl-ələ verib bu maneələri məharətlə aşdılar. Qarabağ müharibəsində Türkiyənin və xüsusilə də şəxsən Rəcəb Tayyib Ərdoğanın Azərbaycana mənəvi dəstəyi isə bu qardaşlıq əlaqələrini böyük bir zirvəyə daşıdı. O zaman iki mənəvi qardaş - Rəcəb Tayyib Ərdoğanla İlham Əliyev öz siyasi həyatlarında ideal saydıqları Ulu Öndərin ən böyük arzusunu, amalını gerçəyə çevirmişdilər. Onlar bunu birlikdə, bütün çətinliklərə sinə gərərək və yenilməyərək etmişdilər.

Bu yazımın sonuna yaxın indiki dövrdə Türkiyə-Azərbaycan əlaqələrini yüksəldən, dirçəldən, zirvəyə çatdıran və vaxtilə Ulu Öndərlə görüşmüş olan iki liderin - Dövlət Baxçalının və Rəcəb Tayyib Ərdoğanın Ulu Öndərə vəfatından sonra verdiyi dəyərdən söhbət açmaq istəyirəm. Bu dəyər indiki dövrdə və Türkiyə-Azərbaycan qardaşlıq əlaqələrinin indiki mərhələsində çox önəmli yer tutur. Çünki bu iki lider Türkiyə-Azərbaycan məsələlərinə Ulu Öndəri özlərinə nümunə götürərək və onunla eyni həssaslıqda yanaşırdılar. Dövlət Baxçalı Ulu Öndərin şəxsiyyətinə və onun dahiliyinə həmişə böyük önəm və qiymət vermişdir. Bunun bir çox sübutu var. Ən əsas sübutu isə 29 sentyabr 2020-ci il tarixinə təsadüf edir. Bəli, Vətən müharibəsinin ilk günlərindən birinə. Həmin gün Dövlət Baxçalının rəhbərlik etdiyi Milliyyətçi Hərəkat Partiyası özünün sosial şəbəkə hesablarından bir video paylaşmışdı. Bu video arxivdə qalmasına, köhnə olmasına baxmayaraq olduqca dəyərlidir. Ona görə ki, Dövlət Baxçalının vaxtilə Bakıya səfərinə aiddir. Həmin videolentdə Dövlət Baxçalı ilə Heydər Əliyevin görüşünə yer verilmişdir. Videoda Dövlət Baxçalı ilə Ulu Öndər Dağlıq Qarabağ münaqişəsini müzakirə edirlər. Dövlət Baxçalı isə Türkiyənin və hökumətinin bu münaqişədə Azərbaycana sona qədər dəstək olduğunu bildirmişdir. Bu tarixi əhəmiyyətli görüşün həmin gün sosial şəbəkələrdə paylaşılması Azərbaycana ən böyük dəstəklərdən biri idi.

2004-cü ildə çap olunmuş "Dünyanı heyran qoyan insan" kitabının 130-cu səhifəsində böyük türk lideri Rəcəb Tayyib Ərdoğanın Ulu Öndərlə bağlı fikirlərinə geniş yer verilmişdir. Bu dəyərli fikirləri olduğu kimi oxucuların diqqətinə çatdırmaq istəyirəm.

Rəcəb Tayyib Ərdoğan bildirmişdir; "Mərhum Heydər Əliyev Azərbaycanın xoşbəxtliyi və firavanlığı, bölgədə və dünyada sülh naminə göstərdiyi fövqəladə xidmətlərlə türk və dünya tarixində şərəfli yer tutmuşdur.

Heydər Əliyev təkcə Azərbaycanda deyil, bütün türk dünyasında tanınan və sevilən lider idi. Türkiyə - Azərbaycan dostluğunu çox gözəl ifadə edən "Bir millət, iki dövlət" ifadəsi də ona məxsusdur. Biz çalışmalıyıq ki, bu hikmətanə deyimin ifadə etdiyi amal bundan sonra da davam etsin. Böyük Heydər Əliyevin ruhu şad olsun deyə, biz türk dünyasının qardaşlıq münasibətlərini və birliyini qoruyub möhkəmləndirməyə çalışmalıyıq. Vəfatı hamımızı sarsıtmış möhtərəm Heydər Əliyev regionun inkişafı üçün çox böyük səy göstərdi. Bu dahi şəxsiyyət Bakı - Tbilisi - Ceyhan neft, Bakı - Ərzurum qaz kəmərləri layihələrinin həyata keçirilməsi üçün çox çalışırdı. Biz də çalışmalıyıq ki, bu layihələr mütləq reallığa çevrilsin. Türkiyə - Azərbaycan münasibətləri elə möhkəm təməl üzərində qurulmuşdur ki, bunu heç bir qüvvə sarsıda bilməz. Əminəm ki, Azərbaycan prezidenti İlham Əliyev hörmətli Heydər Əliyevin yolu ilə gedərək, münasibətlərimizin inkişafına yeni töhfələr verəcəkdir".

Rəcəb Tayyib Ərdoğan yanılmırdı və yanılmadı da. Bu 20 illik inkişaf yolunu o, cənab Prezidentimiz İlham Əliyevlə birgə addımlayaraq Türkiyə-Azərbaycan əlaqələrində yeni səhifə, yeni dastan yazdı. Əlaqələrimiz qardaşlıqdan da yaxın, qardaşlıqdan da ülvi əlaqələrə çevrildi. Bu deyilənlərdən illər sonra - 28 may 2022-ci ildə, Azərbaycanın müstəqilliyinin 104-cü ildönümündə Bakıya səfər edən Rəcəb Tayyib Ərdoğan "Teknofest" texnoloji festivalında iştirak edərkən çıxışında bu sözləri söylədi; "...Heydər Babamızı da rəhmətlə yad edirəm. Məkanı cənnət olsun. Biz təzyiqlə, təhdidlə qorxudulanlardan olmadıq, əsla olmayacağıq. İşğala və haqsızlığa qarşı hər yerdə doğru olanı söyləməkdən, hüquqi davamızı müdafiə etməkdən geri durmadıq, durmayacağıq". Bu sözləri söyləyərkən sanki Rəcəb Tayyib Ərdoğan 19 il əvvələ qayıdır, Ulu Öndərlə rəsmi şəkildə görüşdüyü o günü yenidən yadına salırdı. Böyük lider həm sevinir, həm də kədərlənirdi. Kədərlənsə də, kədərində qürur vardı.

Rəcəb Tayyib Ərdoğan haqlı idi. O və cənab Prezidentimiz İlham Əliyev Ulu Öndərimizin mirasına sahib çıxdı. Türkiyə və Azərbaycan əlaqələrini inkişaf etdirərək bu yüksəkliyə və bu ucalığa çatdırdı. Onların sayəsində bizi daha heç bir düşmən, heç bir qara qüvvə qorxuda, yolumuzdan döndərə bilməz və bilməyəcək də!

Bu gün Rəcəb Tayyib Ərdoğanın, Dövlət Baxçalının və İlham Əliyevin çiyinlərində ucalan və yerə-göyə səs salan Türkiyə-Azərbaycan qardaşlığı, onun inkişafı Ulu Öndərin ən böyük arzusu, amalı idi. Ulu Öndər həyatının son illərini də bu amalla yaşamış və bu amalla başa çatdırmışdı. Bu gün Ulu Öndərimizin ruhu şaddır. Çünki Ulu Öndərin siyasi kursundan bəhrələnən və onu layiqincə davam etdirən bu üç böyük liderin: Rəcəb Tayyib Ərdoğanın, Dövlət Baxçalının və İlham Əliyevin sayəsində Türkiyə-Azərbaycan qardaşlığı daim inkişaf edib, edir və edəcəkdir!

**Yaşasın Türkiyə-Azərbaycan qardaşlığı!**

**Yaşasın türk birliyi, həmrəyliyi!**

***21.08.2023***